# Rəqqasların məharəti

"Çal oyna-2010"




**Son illər nazirliyimiz mədəniyyətimizin inkişafı və təbliği, milli-mənəvi dəyərlərimizin qorunması, istedadların aşkara çıxarılması və onların gələcək qayğısına qalınması istiqamətində çoxsaylı layihələr gerçəkləşdirir. Həyata keçirilən tədbirlər yerlərdə böyük razılıq hissilə qarşılanır. Bu günlərdə baş tutan "Çal oyna-2010" baxış-müsabiqəsi də bu qəbildəndir. Bölgələr üzrə baş tutan bu tədbirlərdən biri də Abşeronda keçirilmişdir.**

Təsadüf elə gətirdi ki, bu günlərdə Abşeronda gerçəkləşən başqa bir tədbirdə də iştirak edəsi olduq. İstər görkəmli Azərbaycan şairi Nəbi Xəzrinin anadan olmasının 85 illiyinə həsr edilmiş yubiley gecəsi, istərsə də "Çal oyna-2010" baxış-müsabiqəsi təşkilatçılıq baxımından tədbir iştirakçılarını razı saldı. Etiraf etmək lazımdır ki, özfəaliyyət rəqs kollektivlərinin "Çal oyna-2010" baxış-müsabiqəsi daha böyük təəssürat oyatdı.

Məlum olduğu kimi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayev bununla bağlı müvafiq əmr imzalamışdır. Tapşırığa əsasən xalqımızın milli dəyərlərini qoruyub saxlamaq, regionlarda mədəniyyət müəssisələrinin fəaliyyətini canlandırmaq, qeyri-maddi mədəni irsin ayrılmaz hissəsi olan milli rəqs sənətinə marağı artırmaq, yeni rəqs kollektivlərinin yaradılmasına zəmin yaratmaq, onların ifaçılıq səviyyəsini gücləndirmək məqsədilə zonalar üzrə baxış-müsabiqələr keçirilmişdir.

Masallı, Mingəçevir və Zaqatalada təşkil olunan müsabiqə barədə növbəti sayımızda məlumat verəcəyik. Abşeronda baş tutan tədbirə gəlincə qeyd etməliyik ki, Xırdalanda keçirilən baxış-müsabiqədə 7 rayonun- Hacıqabul, Sumqayıt, Qobustan, Quba, Xaçmaz, Qusar və Abşeronun rəqs kollektivləri öz məharətlərini göstərmişlər.

Bəri başdan deyək ki, müsabiqə son dərəcə maraqlı alındı. Diqqətinizə verdiyimiz bu şəkillər həmin tədbirdə lentə köçürülmüşdür...

**Elmira HƏSƏNQIZI**